**Xocavənd Rayon Statistika İdarəsi tərəfindən “Ümumdünya statistika günü” ilə əlaqədar tədbir keçirilmişdir.**

14 oktyabr 2025-ci il tarixdə Xocavənd rayonunda Ümumdünya Statistika Günü və Azərbaycanda rəsmi statistikanın yaranmasının 105-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbirdə Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, YAP Xocavənd Rayon Təşkilatının sədri Vüsal Hüseynov, RİH başçısının müavinləri və aparatın əməkdaşları, rayon Statistika İdarəsinin rəhbərliyi və kollektivi, inzibati ərazi daiəsi üzrə nümayəndəliklərin əməkdaşları iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib.

Rayon İcra Hakimiyyətində davam edən tədbiri Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov giriş nitqi ilə açaraq Ümumdünya Statistika Gününün əhəmiyyətindən danışıb. Rayon rəhbəri bildirib ki, 20 oktyabr-Ümumdünya Statistika Günü dövlət idarəçiliyinin və sosial-iqtisadi inkişafın əsas dayaqlarından biri olan statistika sahəsinə verilən yüksək qiymətin təcəssümüdür. O vurğulayıb ki, Azərbaycanda müasir statistika sisteminin formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun rəhbərliyi ilə qəbul edilmiş “Statistika haqqında” qanun bu sahənin hüquqi bazasını möhkəmləndirib, idarəetmənin beynəlxalq standartlara uyğunlaşdırılmasına imkan yaradıb. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün statistika fəaliyyəti rəqəmsal texnologiyaların tətbiqi, şəffaflıq və operativlik prinsipləri əsasında inkişaf edir və ölkənin davamlı sosial-iqtisadi tərəqqisinə mühüm töhfə verir.

Xocavənd Rayon Statistika İdarəsinin rəisi Fərnad Tahirov çıxış edərək idarənin fəaliyyəti, əldə olunan nəticələr və qarşıda duran vəzifələr barədə məlumat verib. O, qeyd edib ki, rayon üzrə sosial-iqtisadi göstəricilərin dəqiq toplanması və təhlili regionun davamlı inkişafına əhəmiyyətli rol oynayır.

Tədbirin sonunda bir qrup rayon statistika idarəsinin əməkdaşı peşə fəaliyyətində fərqləndiklərinə görə Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif olunub.






XOCAVƏND RAYON

















